# “Ali Baş Komandanın hücum əmrini icra etməyə tam hazırıq”



## Lələtəpə qəhrəmanları Baş Sərkərdənin və xalqın inamını hər an doğruldacaqlarını söyləyirlər

Lələtəpədən böyük qürur və sevinc hissi ilə ayrılıb “N” saylı hərbi hissəyə gəlirik. O hərbi hissə ki, ordumuzun aprel zəfərində böyük şücaət göstərərək adını hərb tariximizə qızıl hərflərlə yazdırıb. Elə hərbi hissəyə daxil olarkən gözə çarpan ilk mənzərə bunu bir daha təsdiqləyir. Ali Baş Komandan İlham Əliyevin aprel döyüşlərinin iştirakçıları ilə birgə çəkdirdiyi şəklin əks olunduğu stenddə yazılıb: “Biz tarix yazdıq, tarixə yazıldıq”.

Onlar dördgünlük müharibədə düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi texnikasını məhv edərək Lələtəpə yüksəkliyinə Azərbaycan bayrağını sancan qəhrəmanlardır. Hər bir azərbaycanlı onlarla qürur duyur.

### Qalib hərbi hissə qəhrəmanları ilə öyünür

Hərbi hissədəyik. Ön xətt olmasına baxmayaraq, bura sosial infrastrukturu, maddi və hərbi-texniki təchizatı, hərbi təyinatlı tikililəri, səliqə-sahmanı, təmizliyi ilə “arxa cəbhə”dən fərqlənmir.

Şəxsi heyət dərsdədir. Bələdçimiz zabit Taleh Balabəyov deyir ki, dərslərdə əsas diqqət hər bir əsgərin hərbi texnikanı və taktikanı dərindən qavramasına, müasir silah növlərindən döyüş şəraitində bacarıqla istifadə edilməsinə yönəldilir. Eyni zamanda şəxsi heyətin hərbi-vətənpərvərlik ruhunun gücləndirilməsi məqsədilə bütün lazımi tədbirlər həyata keçirilir. Bu tədbirlər həm də əsgərlərin mənəvi-psixoloji durumunu və döyüş hazırlığını daha da yüksəldir. Hərbi hissənin şəxsi heyətinin aprel döyüşlərində qazandığı zəfəri şərtləndirən amil də elə budur.

Aprel döyüşlərində düşmənə qalib gələn hərbi hissə öz qəhrəmanları ilə öyünür. Ordumuzun aprel zəfərində 16 hərbçisi şəhid olan hərbi hissənin 4 Milli Qəhrəmanı var. Bundan başqa, 9 hərbçi “Azərbaycan bayrağı” ordeni, 4 hərbçi “Vətən uğrunda”, 26 hərbçi isə “İgidliyə görə” medalları ilə təltif olunub.

### Qadın hərbçilərimiz

Şəxsi heyətin dərs prosesi davam etdiyi üçün hərbi hissənin ərazisi ilə tanış olduq. Burada qərargah, kazarmalar, yeməkxana, tibb məntəqəsi, hərbi hissəyə təşrif buyuranlar üçün qonaq otaqları və yeni hamam kompleksi mövcuddur. Hərbçilərin idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün idman şəhərciyi də salınıb.

Qərargah binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğısını, hərbçilərlə görüşlərini əks etdirən və hərbi hissənin aprel döyüşlərində şəhid olan igid oğullarının, eyni zamanda Azərbaycanın bütün milli qəhrəmanlarının fotolarından ibarət guşə yaradılıb.

*Ardı 4-cü səh.*








# “Ali Baş Komandanın hücum əmrini icra etməyə tam hazırıq”

## Lələtəpə qəhrəmanları Baş Sərkərdənin və xalqın inamını hər an doğruldacaqlarını söyləyirlər



*Əvvəli 1-ci səh.*

Diqqəti çəkən məqam qadın hərbçilər oldu. Xanım hərbçilər əsasən kargüzarlıq sistemində çalışırlar. Həmsöhbətimiz Sahilə Mikayılova 2014-cü ildən hərbi hissədə operator vəzifəsində işləyir. Deyir ki, əvvəllər qadınlar cəbhədə ön xətdə həkim, tibb bacısı kimi fəaliyyət göstəriblər. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin bütün birlik və hərbi hissələrində qadınlar əsasən rabitə, tibb, tədris və kadr, eləcə də arxa cəbhədə xidmət keçirlər. Ordumuzda əsgər, çavuş və gizirlərlə yanaşı, leytenantdan tutmuş polkovnik rütbəsinədək zabit qadınlara rast gəlmək olar. Onların sayı ildən-ilə artır.

Digər hərbçi xanım Rəqsanə Cəfərzadə kargüzarlıq xidmətində çalışır. 3 ildir burada xidmət keçən xanım deyir ki, burada onlara diqqət və qayğı göstərilir. Rahat xidmət göstərmələri üçün də hər cür şərait yaradılıb. İş saatı da onları tam qane edir.

Qeyd edək ki, “Hərbi xidmətkeçmə haqqında” Əsasnaməyə görə, qadınlar hərbi xidmətə könüllü qəbul edilirlər. Qadın hərbi qulluqçuların kişilərlə yanaşı xidmət etməsi həm xidmətin keyfiyyətinin artmasına, həm də nizam-intizamın yüksəlməsinə müsbət təsir göstərir. Çünki qadınlar stabilləşdirici amil rolunu oynayırlar.

### Aprel döyüşlərində təxliyə edilən yaralıların hamısı sağ qaldı

Ön cəbhədəki hərbi hissənin əsgər kazarmalarında səliqə-sahmana, təmizliyə söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə onların yaradıcılıq nümunələri, divar qəzeti, aprel döyüşlərində şəhid olan hərbi qulluqçuların, milli qəhrəmanların fotoları, hərbi qaydalar haqqında stendlər asılıb.

Kazarma müasir istilik sistemi ilə təchiz olunub. Əsgər çarpayılarında isə, əvvəlkilərdən fərqli olaraq, daha yüksəkkeyfiyyətli döşək və yastıq var. Eyni zamanda hərbçilərin televiziya vasitəsilə həm informasiya təminatı ödənilir, həm də maraqlandıqları verilişləri izləmələri təmin edilir.

Hərbi hissənin tibb məntəqəsinin həkim və feldşerləri də aprel döyüşlərində böyük şücaət göstəriblər. Xidmətin rəisi Səlim Səlimov bu il aprelin 14-də müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən Fəxri fərmanla təltif edilib. S.Səlimov rəhbəri olduğu xidmətin həkimləri, feldşer və sanitarlarının Lələtəpə uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərdiklərini söylədi: “Aprelin 1-də xəbər verildi ki, Lələtəpə istiqamətində döyüş başlayıb. Hərbçilərimiz düşmən təxribatının qarşısını almaq üçün əks-həmlə əməliyyatına başlayıblar. Dərhal xidmətin bütün üzvləri ilə birlikdə ön xəttə yollandıq. Həkim, feldşer və sanitar-təlimatçılardan ibarət 5 qrup yaratdıq və Komanda Müşahidə Məntəqəsindən qruplar idarə edildi. Yaralılar barədə məlumat daxil olan kimi həmin istiqamətdə olan qruplara xəbər verirdik. Onlar da yaralıları döyüş xəttindən təxliyə edirdi. Yaralılara ilkin tibbi yardım göstərib hospitala göndərirdik. Aprelin 1-dən 4-nə qədər gedən şiddətli döyüşlərdə hərbçilərimizə tam tibbi yardım etdik. Ümumiyyətlə, ilkin tibbi yardım göstərib hospitala göndərdiyimiz bütün yaralılar sağ qaldı. İndi onların əksəriyyəti sağalaraq xidmətini davam etdirir”.

Feldşer Elsevər Allahverdiyev isə ağır döyüş zamanı 13 yaralını xilas edib: “Aprelin 1-də xəbər gəldi ki, Lələtəpə istiqamətində döyüş başlayıb. Tez tibbi ləvazimatlarımızı götürüb əraziyə yollandıq. Gecə idi və şiddətli döyüş gedirdi. Güllə yağışı altında yaralı hərbçilərimizi ərazidən təxliyə edib ilkin tibbi yardım göstərirdik. Dərhal onları hospitala göndərirdik. 13 yaralı hərbçiyə ilkin tibbi yardım göstərib həyatlarını xilas etdiyim üçün çox xoşbəxtəm. Təxliyə prosesi zamanı xidmətimizin bir feldşeri və bir sanitar-təlimatçısı yaralandı. Hazırda hər ikisi tam sağlam şəkildə xidmətdədir”.

*(Əvvəli 25 aprel tarixli sayımızda)*

### Əsgər anasının bişirdiyi yeməklər daha dadlı, daha keyfiyyətli olur







**Sədi Musayev**



**Səlim Səlimov**



**Elsevər Allahverdiyev**



**Sahilə Mikayılova**



**Rəqsanə Cəfərzadə**

Nahar vaxtına az qalıb. Bir qədər sonra hərbi hissənin şəxsi heyəti yeməkxanaya daxil olacaq. Öncə qeyd edək ki, müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə aşpazların, yeməkxana və mətbəx işçilərinin, qabyuyanların mülki işçilərlə əvəz olunması hazırlanan yeməklərin və görülən işlərin keyfiyyətinə müsbət təsir göstərib. Bu, əlbəttə ki, yeməklərin daha dadlı, daha keyfiyyətli olması deməkdir. Əvvəllər bu işlə - yeməklərin bişirilməsi ilə əsgərlərin arasından seçilmiş aşpazlar məşğul olurdu. Yəqin hər kəs razılaşar ki, əsgərin bişirdiyi yeməklə bir qadının, bir ananın hazırladığı yeməyin dadı arasında fərq yerlə göy qədər olacaq.

Ali Baş Komandan İlham Əliyev ötən il Tərtərdə yeni inşa olunmuş “N” saylı hərbi hissənin açılış mərasimində bu məsələyə toxunaraq qeyd etmişdi ki, əvvəllər bu işləri əsgərlər görürdülər və bu, onları əsas işindən ayırırdı. İndi bu işə mülki vətəndaşlar cəlb olunub. Bu şəxslərə həm də yaxşı maaş verilir.

Həqiqətən Azərbaycan Ordusunda artıq əvvəlki dövrlə müqayisədə əhəmiyyətli yeniliklər baş verib. Bu gün bir çox hərbi hissə və bölmələrdə təsərrüfat-məişət işlərinə peşəkar mülki işçilər cəlb olunub. Şəxsi heyətin sırf döyüş hazırlığı ilə bağlı tapşırıqlara cəlb edilməsini təmin etmək üçün minlərlə mülki peşəkar şəxs hərbi hissələrdə işə qəbul edilib. Dünyanın müasir ordularının bu sahədə təcrübəsindən bəhrələnərək mülki işçilərin müəyyən işlərə cəlb edilməsinin ordumuzun döyüş hazırlığına müsbət təsirini qətiyyətlə söyləmək olar.









### Bol çeşidli milli xörəklər

Yeməkxanada səliqə-sahmana və təmizliyə tam riayət edilir. Bütün avadanlıqla təchiz edilmiş yeməkxanada mətbəx, təsərrüfat otaqları, eləcə də ərzaq və əşya anbarları yaradılıb. Hərbi hissələrdə şəxsi heyətin qidalanmasının keyfiyyətinin yaxşılaşdırılması və bişirilən xörəklərin çeşidinin artırılması məqsədilə milli yeməklərin hazırlanmasına üstünlük verilir.

Yeməkxana rəisi Rüfət Nəsibov deyir ki, burada çalışanların çoxu qadındır. Şəxsi heyət üçün hazırlanan gündəlik yeməyin çeşidi çox zəngindir. Səhər və günorta qida rasionunda hökmən ət, axşam isə balıq nəzərdə tutulur. Səhər yeməyində əsasən əsgərlərə südlü düyü və ya vermişel, çəkilmiş mal əti ilə qarabaşaq verilir. Naharda isə 2 çeşiddə şorba hazırlanır. Qovrulmuş ətlə makaron, qarabaşaq, düyü bişirilir. Bundan əlavə, həftənin müvafiq günlərində küftə və borş da olur. Şam yeməyində balıq konservi ilə bulğur sıyığı hazırlanır. Həmçinin hərbçilər mövsümi tərəvəz salatları və şirələrlə təmin edilirlər.

Artıq nahar vaxtıdır. Süfrəyə salatlar, şirələr düzülüb. Bir qədər sonra şəxsi heyət növbə ilə yeməkxanaya daxil olub nahar edəcək. Öncə zabit Namiq Baxşeyişzadə yeməkxanaya daxil olub yeməklərin keyfiyyətinə baxdıqdan sonra şəxsi heyətin içəri daxil olmasına icazə verir.















Naharını bitirən bir neçə əsgərlə söhbətə başlayırıq. 16 aydır burada xidmət edən əsgər Təbriz Mehdiyev deyir ki, hərbi xidmətə yollananda keçirdiyi narahatlıq hissi yalnız yeməklə bağlı olub: “Orduda aparılan islahatlar barədə məlumatım olsa da, bəzi şeylərdən xəbərim yox idi. Fikirləşirdim ki, əsgərlikdə yeganə problemim yeməklə bağlı olacaq. Çünki 18 il ev yeməyi yeyən bir insan birdən-birə başqa mühitə düşdükdə çətinlik yaranır. Ancaq tam əksinə oldu. Burada bişirilən xörəklərlə evdə yediyimiz xörəklər arasında fərq yoxdur. Yüksək səviyyədə xidmət var və keyfiyyətə söz ola bilməz. Həftə ərzində xeyli çeşiddə xörəklər hazırlanır”.

### Qalib ordunun mübariz əsgərləri hər an döyüşə hazırdırlar

Əsgər Elnur Babayev cəmi 7 aydır xidmətdədir. Ön xətdə xidmət etməsi ilə fəxr edir: “Xidmət etdiyim hərbi hissə aprel döyüşlərində qalib gəlib. Gələcəkdə fəxrlə burada qulluq etdiyimi söyləyəcəyəm. Hərbi xidmətə “kişilik məktəbi” deyirlər. Bu məktəb bizim həyatımızda müsbət iz qoyacaq. Burada zabitlərimiz bizə atəş, taktiki və döyüş hazırlığına dair dərslər keçir. 7 aydır hərbi forma geyinməyimə baxmayaraq, Azərbaycan Ordusunun qüdrətini bütün varlığımla duyuram. Biz artıq özümüzü mübariz əsgər kimi hiss edirik. Axı qalib ordunun əsgərləriyik və hər an döyüşə hazırıq”.

### Azərbaycan Ordusu hələ çox yüksəkliklərdə üçrəngli bayrağımızı dalğalandıracaq

Zabit Sədi Musayev aprel döyüşlərində göstərdiyi igidlik və şücaətə görə müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən Fəxri fərmanla təltif edilib.

Həmsöhbətimiz deyir ki, həmin günləri xatırladıqca döyüş ruhu daha da yüksəlir: “Aprelin 1-də gecə həyəcan siqnalı verildi. Məlumat gəldi ki, düşmənin kəşfiyyat-diversiya qrupu mövqelərimizə basqın edib. Silahlanıb Lələtəpə istiqamətinə yollandıq. Həqiqətən ermənilər ordumuzun nəzarətində olan yüksəklikləri ələ keçirməyə cəhd edirdilər. Komandanlıq əks-hücum əmrini verdi və biz qruplarla düşmən üzərinə yeridik. Bərk yağış yağdığı üçün yüksəkliklərə qalxmaq çətinləşirdi. Düşmənin minomyot mərmiləri hər tərəfə düşürdü. Buna baxmayaraq, hərbçilərimiz döyüşə-döyüşə Lələtəpə istiqamətinə qalxdılar və erməni hərbçiləri mövqelərini qoyub qaçmağa başladılar. Öncə tutduğumuz mövqelərdə möhkəmləndik və yenidən hücum etdik. Öndə olan bir tankımız minaya düşmüşdü. Dərhal tanka tərəf irəliləyib yanğını söndürdüm. İçərisinə daxil olub geri çəkdim. Heyəti sağ-salamat idi. Sonra düşmənin yüksək rütbəli zabiti, alayın mühəndis xidmətinin rəisini snayper silahı ilə məhv etdim.

Düşmənin xeyli sayda canlı qüvvəsini, hərbi texnikasını məhv edib Azərbaycan bayrağını Lələtəpəyə sancdıq. Aprelin 5-nə qədər ermənilər Lələtəpəni geri qaytarmaq istədilər, ancaq bacarmadılar. Biz bir addım da geri çəkilmədik, çəkilməyəcəyik də. İnanıram ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu hələ çox yüksəkliklərdə üçrəngli bayrağımızı dalğalandıracaq”.

Bəli, ordu hər bir millətin güvənc yeri, qürur, ləyaqət rəmzi, şərəfi, özünütəsdiq imkanıdır. Güclü ordu fiziki, psixoloji cəhətdən hərbçi adını daşımağa hazır olan vətəndaşlardan və onların hərbi vasitələrlə tam təchiz edilməsi ilə formalaşır. Bu gün Azərbaycan Silahlı Qüvvələri bu dövlətin qüdrətinin nümunəsidir, xalqın iftixar yeridir. Çünki bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu prosesi elə bir mühüm və həlledici mərhələyə qədəm qoymuşdur ki, qazanılan nailiyyətlərlə yerindəcə, hərtərəfli tanış olduqda fəxarət hissi keçirirsən. Azərbaycan Silahlı Qüvvələri yüksək döyüş hazırlığına malik və peşəkar, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş savadlı, vətənpərvər kadrlardan ibarətdir.

Düşmənlə üzbəüz təmas xəttində yerləşən hərbi hissələrdə özünü göstərən əhvali-ruhiyyə və hərbi quruculuq prosesi böyük qürur hissi doğurur. Bir daha əmin olursan ki, vətən torpağı etibarlı əllərdədir.

***Rəşad BAXŞƏLİYEV,***
***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

Azərbaycan.- 2017.-29 aprel.- S. 1; 4.